Azərbaycan.- 2021.- 6 aprel. S. 6.

# ÜST-ün baş direktoru "Twitter" hesabında Azərbaycan Prezidenti ilə videokonfrans formatında görüşü ilə bağlı paylaşım edib

Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus şəxsi "Twitter" hesabında aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə videokonfrans formatında görüşü ilə bağlı paylaşım edib.




AZƏRTAC-ın məlumatına görə, baş direktor paylaşımında görüşdə COVID-19 pandemiyası ilə mübarizədəki maliyyə yardımına, Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığa, peyvəndlərin ədalətli şəkildə bölüşdürülməsindəki dəstəyinə və Qoşulmama Hərəkatının üzvləri arasındakı həmrəyliyə görə Azərbaycana təşəkkür etmək imkanının olduğunu bildirib.